**Azərbaycan Respublikası**
**Bakı şəhər Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının**
# SƏRƏNCAMI

№ 114 «25» İyun 2023 cü il

**"Binəqədi rayonunda mülki müdafiə idarəetmə orqanlarının tərkibində dəyişiklik edilərək onların yenidən yaradılması haqqında"**

Azərbaycan Respublikası Prezidentinin 18 aprel 1998-ci il tarixli 700 saylı fərmanı ilə təsdiq edilmiş Azrəbaycan Respublikasının "Mülki Müdafiə haqqında qanunu"nu rəhbər tutaraq Mülki müdafiənin Binəqədi rayonu ərazisində fövqəladə hadisələr zamanı xüsusi tədbirlərinin yerinə yetirilməsi məqsədilə

***qərara alıram:***

I. "Binəqədi rayonu üzrə mülki müdafiə idarəetmə orqanlarının tərkibində dəyişiklik edilməsi haqqında" 17 sentyabr 2018-ci il tarixli 52 saylı sərəncamında dəyişiklik edilsin və "Fövqəladə halların və onların nəticələrini aradan qaldırılması üçün mülki müdafiə qüvvələrinin yaradılması haqqında" Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 02 fevral 2007-ci il tarixli 33 saylı sərəncamı ilə yaradılmış mülki müdafiə idarəetmə orqanlarının yeni tərkibi aşağıdakı qaydada təsdiq edilsin.

1. Nəzərə alınsın ki, rayonda mülki müdafiəyə bilavasitə Rayon İcra Hakimiyyətinin başçısı rəhbərlik edir. Fövqəladə hadisələr zamanı mülki müdafiə tədbirlərinin hazırlanması və yerinə yetirilməsi üçün Rayon İcra Hakimiyyətinin başçısı tam məsuliyyət daşıyır.

2. Mülki müdafiə tədbirlərini planlaşdırmaq, onların yerinə yetirilməsini təşkil etmək və icrasını nəzarətdə saxlamaq Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzinin Binəqədi rayonu üzrə Fövqəladə hallar və mülki müdafiə şöbəsinin rəisinə həvalə edilsin.

II. Mülki müdafiənin xüsusi tədbirlərini (mühəndis-texniki, tibbi, rabitə və xəbərdarlıq, təminat, mühafizə və digər tədbirləri ) hazırlayıb yerinə yetirmək, bu məqsədlə qüvvə və vasitələri hazırlamaq, xilasetmə və digər təxirəsalınmaz tədbirlər yerinə yetirərkən mülki müdafiə qüvvələrinin səmərəli fəaliyyətini təmin etmək üçün rayon ərazisində aşağıdakı xidmətlər və onların bazalarında ərazi mülki müdafiə qüvvələri yaradılsın.

Scanned with CamScanner

1. Rabitə və xəbərdalıq xidməti - 2 saylı Rabitə Xidmətləri Mərkəzinin EATS 561/62/63- ün nəzdində. Xidmətin rəisi – 2 saylı Rabitə Xidmətləri Mərkəzinin EATS 561/62/63- ün baş mühəndisi, xidmətin bazasında. Rabitə və xəbərdarlıq qrupu – 1/15;

2. Yanğından Mühafizə Xidməti - Binəqədi Rayon Dövlət Yanğından Mühafizə Xidmətinin bazasında. Xidmətin rəisi - Binəqədi Rayon Dövlət Yanğından Mühafizə Xidmətinin rəisi, xidmətin nəzdində yanğınsöndürmə komandası – 1/25;

3. İctimai asayişin mühafizəsi xidməti - Rayon Polis İdarəsinin bazasında. Xidmətin rəisi - Rayon Polis İdarəsinin rəisi, xidmətin bazasında. İctimai asayişin mühafizə qrupu, tərkibi -1/45;

4. Sığınacaq və daldalanacaq xidməti - rayon MKTB-nin bazasında. Xidmətin rəisi - rayon MKTB-nin rəisi, Sığınacaq və daldalanacaqlara xidmət manqası, tərkibi-1/4;

5. Tibb xidməti – "Ə.D.Məlikov adına Binəqədi Tibb Mərkəzi" publik hüquqi şəxsin nəzdində. Xidmətin rəisi - "Ə.D.Məlikov adına Binəqədi Tibb Mərkəzi" PHŞ-nin baş həkimi. Xidmətin nəzdində səhiyyə nazirinin 28.12.1999-cu il tarixli 163 saylı əmrinə müvafiq olaraq aşağıdakı tərkibdə tibb qüvvələri yaradılsın.

- İlk həkim yardım dəstəsi – "Ə.D.Məlikov adına Binəqədi Tibb Mərkəzi" PHŞ-nin bazasında, tərkibi – 1/82;
- İxtisaslaşmış təcili tibbi yardım briqadası (Bakı şəhəri Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasının 9,16 və 17 saylı bölməsi)-1/16;
- Epidemik kəşfiyyat qrupu (Binəqədi Rayon Gigiyena və Epidemiologiya Mərkəzi) - 1/15.

III. Fövqəladə hallar zamanı baş vermiş hadisənin nəticələrini aradan qaldırmaq, xilasetmə və qəza bərpa işlərini həyata keçirtmək məqsədilə təsərrüfat obyektlərinin bazalarında ərazi mülki müdafiə qüvvələri yaradılsın.

1. Ərazi xilasetmə dəstəsi – "Binəqədi OYL" şirkətinin bazasında, tərkibi – 1/32 (2 saatlıq hazırlığa malik);

2. Ərazi kəşfiyyat dəstəsi:

- Mühəndis kəşfiyyat qrupu - rayon MKTB-nin bazasında, tərkibi – 1/16;
- Radiasiya və kimyəvi kəşfiyyat qrupu – " Azərbaycan Dəmiryolları" QSC-nin Yük Daşımaları Departamentinin Sinifdənkənar Biləcəri stansiyasının bazasında, tərkibi – 1/16;

3. Elektrik qəza-bərpa qrupu – Binəqədi Rayon Enerji Təchizatı və Satışı idarəsi bazasında, tərkibi – 1/13;

4. Su kanalizasiya xətlərinin qəza-bərpa qrupu – Binəqədi Rayon Sukanal İdarəsi bazasında, tərkibi – 1/13;

5. Əhalinin və yüklərin daşınması üçün avtonəqliyyat dəstəsi - "Azərsu" ASC-nin Nəqliyyat və Xüsusi Texnika İdarəsi, tərkibi- 4/87.

Scanned with CamScanner

IV. Mülki müdafiə xidmətlərinin və bazalarında mülki müdafiə ərazi qüvvələri yaradılmış, təsərüffat obyektlərinin rəhbərlərinə tapşırılsın ki, 1 ay müddətində rəhbərlik etdikləri mülki müdafiə xidmət və təsərüffat obyektlərinin bazalarında yaradılmış mülki müdafiə ərazi qüvvələrinin ştat siyahısı, təşkili sxemi, hazırlıq planlarını və digər lazımi sənədləri hazırlayıb razılaşdırmaq üçün Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzinin Binəqədi rayonu üzrə Fövqəladə hallar və mülki müdafiə şöbəsinin rəisinə təqdim etsinlər.

V. Rayon Fövqəladə Hallar Komisiyasına tapşırılsın ki, fövqəladə hallar zamanı lazım gələrsə rayon əhalisini seyrəkləşdirmək və köçürmək funksiyalarını yerinə yetirsin.

VI. Mülki müdafiə tədbirlərinin idarə olunması:

- Rayonun MM üzrə rəhbər heyətinin fövqəladə hallar zamanı idarəetmə fəaliyyəti üçün nəzərdə tutulmuş M.Ə.Rəsulzadə qəsəbəsi, Azadlıq küçəsi 7 ünvanında yerləşən 510 inventar saylı ehtiyat idarəetmə məntəqəsinin sökülməsi ilə əlaqədar yenisinin tikilməsi məqsədilə ərazisi müəyyən olunsun, tikinti layihəsi işlənilsin və bu barədə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət hazırlansın.

VII. Nəzərə alınsın ki, mülki müdafiə siqnalları üzrə xəbərdarlığın təşkili aşağıdakı qaydada həyata keçirilir:

-Rayonun mülki müdafiə rəhbərliyi Rayon Polis İdarəsinin əməliyyat növbətçisi tərəfindən:

-Rayon FHK-nın üzvləri, mülki müdafiə xitmətlərinin rəisləri və təsərrüfat obyektlərinin rəhbərləri - rabitə və xəbərdarlıq xidməti tərəfindən.

VIII. Sərəncamın icrasına nəzarəti öz üzərimə götürürəm.

**Elxan Allahverdiyev**

***ƏSLİ İLƏ DÜZDÜR:***

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti • SƏNƏDLƏR ÜÇÜN

Scanned with CamScanner

**AZƏRBAYCAN RESPUBLİKASI**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

№ 133 "28" iyul 2023-cü il

**"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 saylı Sərəncamının Binəqədi rayonu üzrə icrası məqsədi ilə görüləcək işlərə dair Tədbirlər Planının təsdiq edilməsi haqqında**

Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022–2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olmaqla yeni nəsil struktur və institusional islahatlar vasitəsilə ölkə iqtisadiyyatının simasında böyük dəyişikliklərə səbəb olacaq yeni hədəfləri gerçəkləşdirmək əzmindədir. Bu məqsədlə ölkə başçısının müvafiq sərəncamı ilə "Azərbaycan–2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq olunmuş və bu prioritetlərə söykənən "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" hazırlanmışdır.

Özəl sektorun inkişafı; qeyri-neft/qaz sektorunun daha da gücləndirilməsini təmin edən investisiyaların cəlb olunması; dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin iqtisadi səmərəsinin yüksəldilməsi; makroiqtisadi və maliyyə sabitliyinin qorunması, dövlət büdcəsinin dayanıqlılığının və səmərəliliyinin artırılması mexanizmlərinin təkmilləşdirilməsi; insan kapitalının davamlı inkişafı; innovasiyaların təşviq edilməsi, müasir texnoloji həllərin tətbiqinin genişləndirilməsi; əhalinin sosial müdafiəsinin, xüsusilə, həssas təbəqələrin sosial təminatının gücləndirilməsi, nəhayət, ölkənin sosial-iqtisadi inkişafında tarixi dönüş dövrü və yeni strateji mərhələ olan işğaldan azad edilmiş ərazilərin bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası əsasında bu regiona böyük qayıdışın təmin edilməsi təsdiq olunmuş strategiyanın əsas hədəfləridir.

Strategiyada qoyulan hədəflərə nail olmaq üçün Binəqədi rayonunda sosial-iqtisadi islahatlar çərçivəsində görüləcək işlərin icrasında operativliyin təmin edilməsi, Rayon İcra Hakimiyyətinin aidiyyəti icraçı qurumlarla və rayon ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarla qarşılıqlı fəaliyyətinin gündəlik tələblər əsasında qurulmasının və koordinasiya işinin təkmilləşdirilməsi məqsədi ilə yuxarıda göstərilənləri nəzərə alaraq, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3, 4 və 6.8-ci bəndlərinə əsasən

**Qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 saylı Sərəncamında verilmiş tapşırıqların icrası məqsədi ilə cari il üzrə görüləcək işlərə dair Tədbirlər Planı təsdiq edilsin (***əlavə olunur***).

**2.** RİH başçısı Aparatının müavinləri Hacıbaba Babayevə, Sevinc Süleymanovaya tapşırılsın ki, Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin Aparatın aidiyyəti struktur bölmələri tərəfindən vaxtında və operativ şəkildə həyata keçirilməsinə nəzarəti təmin etsinlər.

**3.** RİH başçısı Aparatının aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki, Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin vaxtında və operativ şəkildə həyata keçirilməsini, məlum Sərəncamla təsdiq olunmuş Strategiyada müəyyən edilmiş aidiyyəti mərkəzi icra hakimiyyətləri, agentliklər, komitələr, publik-hüquqi şəxslər və s. icraçı qurumlarla nəzərdə tutulmuş tapşırıqların icrasının təmin edilməsi istiqamətində zəruri olan rəsmi yazışmaların, müraciətlərin həyata keçirilməsini təmin etsinlər.

Scanned with CamScanner

**4.** RİH başçısı Aparatının aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki, ...əmadi olaraq görülən işlərlə bağlı hesabatlılığı Azərbaycan Respublikas... ...ezidentinin Administrasiyasında yaradılmış Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinə nəzarətin elektron qaydada həyata keçirilməsi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin əsas səmərəlilik göstəriciləri əsasında qiymətləndirilməsini təmin edən "Dövlət Nəzarəti İnformasiya Sistemi"nə yerləşdirilməsinin təmin edilməsi məqsədi ilə RİH başçısı Aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri Aynur Quliyevaya təqdim etsinlər.

**5.** RİH başçısı Aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri Aynur Quliyevaya tapşırılsın ki, cari ilin sonunda Tədbirlər Planının icrası ilə bağlı sosial iqtisadi və ictimai-siyasi sahədə görülmüş işlərlə bağlı RİH başçısı Aparatının aidiyyəti struktur bölmələrinin təqdim etdikləri materiallar əsasında ətraflı təhlil materiallarının hazırlanmasını və RİH-in veb səhifəsində, həmçinin, sosial şəbəkələr üzərində yerləşdirilməsini təmin etsin.

**6.** RİH başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə i... şöbəsinin müdiri vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən, məsləhətçi Badam Cəfərovaya tapşırılsın ki, sərəncamın və təsdiq olunmuş Tədbirlər Planının RİH başçısının müavinlərinə, Aparatın aidiyyəti struktur bölmələrinə göndərilməsini təmin etsin.

**7.** Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

***Əsli ilə düzdür:***

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən, məsləhətçi** **Badam Cəfərova**

SƏNƏDLƏR ÜÇÜN

Scanned with CamScanner

Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının
28 iyul 2023-cü il tarixli 133 saylı Sərəncamı
ilə təsdiq edilmişdir
________ E.Allahverdiyev

"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 saylı Sərəncamının Binəqədi rayonu üzrə icrası məqsədi ilə görüləcək işlərə dair Tədbirlər Planını

| Sıra N-si | Tədbirlər və layihələr | İcraçı qurumlar | | İcra müd dəti | Nəticə indikatorları | | RİH-də aidiyyəti icraçı struktur bölmələrinin rəhbərləri (soyadı, adı) |
|---|---|---|---|---|---|---|---|
| | | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | | İlkin nəticə | Aralıq nəticə | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| MİLLİ PRİORİTET 1. DAYANIQLI ARTAN RƏQABƏTQABİLİYYƏTLİ İQTİSADİYYAT | | | | | | | |
| MƏQSƏD 1.1: DAVAMLI VƏ YÜKSƏK İQTİSADİ ARTIM | | | | | | | |
| 1.1.1. | Fəaliyyət istiqaməti: Qeyri-neft/qaz sektoruna birbaşa xarici investisiyaların cəlbinin stimullaşdırılması | | | | | | |
| 1. | İnvestorların problem və çətinliklərini həll etmək üçün mütəmadı dövlət–biznes dialoqu çərçivəsinin qurulması | IN | aidiyyəti qurumlar | 2023 | Xarici və yerli investorlar ilə yerli qurumlar arasında effektiv dialoq çərçivəsinin qurulması | Yaradılacaq müasir CRM (Müştərilərlə Əlaqələrin İdarə edilməsi Sistemi) sistemi çərçivəsində İnvestorların Narazılıqlarının İdarə olunması Sisteminin tətbiqi; Sözügedən sistem vasitəsilə dövlət və biznes dialoqunun mütəmadı dəstəklənməsi, Dövrün sonuna investorların fəaliyyətini tənzimləyən hüquqi çərçivənin təkmilləşdirilməsinə dair 10 layihənin hazırlanması | RİH başçısının müavini Hacıbaba Babayev<br><br>Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri İskənd Cahangir-zadə |
| 1.1.2. | Fəaliyyət istiqaməti: Su ehtiyatlarının idarə edilməsinin təkmilləşdirilməsi yolu ilə iqtisadi fəallığın dəstəklənməsi | | | | | | |
| 1. | Alternativ su mənbələrindən istifadə | "Azərsu" ASC | "AzMelSu Təs" | 2023 | Su ehtiyatlarının səmərəli idarə edilməsi və su itkilərinin | | RİH başçısının müav Hacıbaba Babayev |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | praktikasının genişləndirilməsi | | ASC, ETSN, AMEA, YİH | | azaldılması üzrə təkliflərin həyata keçirilməsi | | Rayon təsərrüfatı şöbəsinin müdiri Azər Kərimov |
| 1.1.3. | **Fəaliyyət istiqaməti: Biznes üçün investisiya mühitinin yaxşılaşdırılması və monitorinqinin infrastruktur, texnoloji və hüquqi çərçivələrinin yaradılması** | | | | | | |
| 1. | Sahibkarlıq fəaliyyətinə icazələrin alınması üçün müvafiq elektron platformanın işləkliyinin təmin olunması | İN | VXSİDA, aidiyyəti qurumlar | 2023 | Elektron Platformanın tətbiqi | Hər il 5 əlavə icazənin elektron platforma vasitəsilə verilməsinə nail olunması | RİH başçısının müavini Hacıbaba Babayev<br><br>Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri İskəndər Cahangir-zadə |
| **MİLLİ PRİORİTET 2. RƏQABƏTLİ İNSAN KAPİTALI VƏ MÜASİR İNNOVASİYALAR MƏKANI** | | | | | | | |
| **MƏQSƏD 2.1: VƏTƏNDAŞLARIN SAĞLAM HƏYAT TƏRZİ** | | | | | | | |
| 2.1.1. | **Fəaliyyət istiqaməti: Vətəndaşların sağlam həyat tərzinin təmin edilməsi** | | | | | | |
| 1. | Respublikanın ali və orta təhsil müəssisələrində tələbə/şagird və müəllim heyəti üçün sağlam həyat tərzi barədə muxtəlif informativ maarifləndirici resursların yaradılması | SN | İTSDA, GİN, ETN, AQUPDK, YİH | 2023 | 3 adda maarifləndirmə materialı və 1 adda e-təlimin həyata keçirilməsi | Dövrün sonuna 10 adda maarifləndirmə materialı və 5 adda e-təlimin tətbiqi | RİH başçısının müavini Sevinc Süleymanova<br><br>İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nicat Allahverdiyev |
| 2. | Sağlam həyat tərzi və davranış risk amilləri barədə maarifləndirici materialların (videoçarxlar, bukletlər plakatlar və s.) hazırlanması və aidiyyatı üzrə paylanması, aidiyyatı mobil tətbiqlərin istifadəyə verilməsi | SN | GİN, ETN, AQUPDK, AQTA, YİH | 2023 | Müvafiq maarifləndirici materiallardan istifadə | Dövrün sonuna videoçarx və poster sayının 50-ə çatması | RİH başçısının müavinləri Hacıbaba Babayev və Sevinc Süleymanova<br><br>İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nicat Allahverdiyev<br><br>Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması |

Scanned with CamScanner

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | şöbəsinin müdiri Iskəndər Cahangir-zadə |
| 3. | Əhalinin müxtəlif təbəqələri, o cümlədən işləyən əhali üçün fiziki aktivliyə dair maarifləndirici materialların (bukletlər, plakatlar, kitabçalar, sosial çarxlar və s.) hazırlanması və paylanması (o cümlədən ilkin səhiyyə xidməti göstərən müəssisələr, KİV və sosial şəbəkələr vasitəsilə) | SN | İTSDA, GİN, AQUPDK, YİH | 2023 | Böyüklər arasında müntəzəm intensiv fiziki aktivliklə məşğul olmayanların ümumi göstəricisinin 2% azalması | Böyüklər arasında müntəzəm intensiv fiziki aktivliklə məşğul olmayanların ümumi göstəricisinin 3% azalması | RİH başçısının müavini Sevinc Süleymanova<br><br>Ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nicat Allahverdiyev |
| 4. | Əhalinin yaş kateqoriyaları, sosial-iqtisadi və gender amillərinə uyğun olaraq, sağlam həyat tərzi və davranış risk amilləri ilə bağlı vəziyyətin müntəzəm monitorinqi və qiymətləndirilməsi | SN | İTSDA, GİN, AQUPDK, YİH | 2023 | STEPS sorğusunun hazırlanması və aparılması | Hər il sorğuların keçirilməsi və nəticələrinin geniş kommunikasiyası | RİH başçısının müavini Sevinc Süleymanova<br><br>Ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nicat Allahverdiyev |
| 5. | Mövcud idman infrastrukturunun müasirləşdirilməsi və ondan istifadə imkanlarının genişləndirilməsi | GİN | ETN, YİH | 2023 | İdman infrastrukturundan istifadənin genişlənməsinə dair tədbirlərin həyata keçirilməsi | Mövcud idman infrastrukturundan istifadə edənlərin sayının hər il 10% artması | RİH başçısının müavini Sevinc Süleymanova<br><br>Ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Nicat Allahverdiyev |

## MİLLİ PRİORİTET 3. TƏMİZ ƏTRAF MÜHİT VƏ "YAŞIL ARTIM" ÖLKƏSİ

## MƏQSƏD 3.1: YÜKSƏK KEYFİYYƏTLİ EKOLOJİ MÜHİT

**3.1.1.** **Faaliyyət istiqaməti: Tullantıların səmərəli idarə olunması**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1. | Tullantıların yaranması, təkrar emalı və zərərsizləşdirilməsi ilə bağlı uçotun təkmilləşdirilməsi, məlumat bazasının və elektron informasiya sisteminin yaradılması | ETSN | IN, SN, ITSDA, VXSIDA, YIH, DSK, "Təmiz Şəhər" ASC | 2023 | Tullantıların uçotunun təkmilləşdirilməsinə dair tədbirlərin həyata keçirilməsi | Tullantılarla bağlı elektron informasiya sisteminin istifadəyə verilməsi | RIH başçısının müavini Hacıbaba Babayev<br><br>Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri İskəndər Cahangir-zadə |
| 2. | Regionlarda bərk məişət tullantılarının mərkəzləşdirilmiş idarə olunması sisteminin yaradılması və bu sahədə maddi-texniki bazanın gücləndirilməsi | YİH | ETSN, "Təmiz Şəhər" ASC, SN | 2023 | Regionlarda bərk məişət tullantılarının idarə olunmasına dair təkliflərin həyata keçirilməsi | Regionlarda bərk məişət tullantılarının idarə olunması üzrə maddi təchizatı yaxşılaşdırılmış mərkəzləşdirilmiş sistemin fəaliyyət göstərməsi | RIH başçısının müavini Hacıbaba Babayev<br><br>Rayon təsərrüfatı şöbəsinin müdiri Azər Kərimov<br><br>Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri İskəndər Cahangir-zadə |
| 3. | Təhlükəli tullantı poliqonlarının infrastrukturunun müasirləşdirilməsi və mərkəzləşdirilmiş zərərsizləşdirmə qurğularının tətbiqi | ETSN | IN, KTN, SN, "Təmiz Şəhər" ASC, YIH | 2023 | | Müasir infrastruktur və mərkəzləşdirilmiş zərərsizləşdirmə qurğularının tətbiqi | RIH başçısının müavini Hacıbaba Babayev<br><br>Rayon təsərrüfatı şöbəsinin müdiri Azər Kərimov<br><br>Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri İskəndə Cahangir-zadə |
| 3.1.2. | **Fəaliyyət istiqaməti: Hidrometeoroloji müşahidə və ətraf mühitin monitorinqi sisteminin təkmilləşdirilməsi** | | | | | | |
| 1. | Atmosfer havasının çirklənməsi üzrə avtomatik monitorinq şəbəkəsinin və vahid məlumat bazasının genişləndirilməsi | ETSN | SN, YIH | 2023 | Müvafiq sahədə monitorinq şəbəkəsinin tətbiqi | Dövrün sonunda atmosfer havasının monitorinqi şəbəkəsinin avtomatlaşdırılma səviyyəsi 87% | RIH başçısının müavini Hacıbaba Babayev<br><br>Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | şöbəsinin müdiri İskəndər Cahangir-zadə |
| 3.1.3. | **Fəaliyyət istiqaməti: Meşə ilə örtülü ərazilərin və yaşıllıqların mühafizəsi və artırılması** | | | | | | |
| 1. | Qeyri–meşə fondu torpaqlarında yaşıllıqların artırılması | ETSN | YİH, "Azərsu" ASC, "AzMelSu-Təs" ASC, Bələdiyyələr | 2023 | | Qeyri–meşə fondu torpaqlarında yaşıllıqların sahəsinin dövrün sonuna 5700 hektara çatması | RİH başçısının müavini Hacıbaba Babayev<br><br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Rauf Həsənov<br><br>Rayon təsərrüfatı şöbəsinin müdiri Azər Kərimov |
| 3.1.4. | **Fəaliyyət istiqaməti: Mineral xammal bazasından səmərəli istifadə** | | | | | | |
| 1. | Mineral xammal resurslarından istifadə mexanizmlərinin təkmilləşdirilməsi. faydalı qazıntı hasilatında müasir texnologiyalardan istifadənin stimullaşdırılması, istismarı bitmiş faydalı qazıntı yataqları ərazilərinin rekultivasiyası | ETSN | İN, KTN, EN, YİH | 2023 | Müasir texnologiyalar-dan güzəştli istifadə imkanlarının yaradılmasına dair təkliflər hazırlanması | 1920 ha sahədə faydalı qazıntı hasilatında müasir texnologiyadan istifadə və 1042 ha sahədə rekultivasiya işlərinin aparılması | RİH başçısının müavini Hacıbaba Babayev<br><br>Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri İskənd Cahangir-zadə |

## AKRONİMLƏR VƏ İXTİSARLAR

| | |
|---|---|
| ETSN | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| EN | Azərbaycan Respublikasının Energetika Nazirliyi |
| ƏN | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi |
| GİN | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| İN | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi |
| KTN | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi |

Scanned with CamScanner

Scanned with CamScanner